Azərbaycan Respublikası Vergilər Nazirinin
20.08.2015-ci il tarixli 1517040101183800
№-li Əmri ilə təsdiq edilmişdir

# “Vergi partnyorluğu sazişinin bağlanması Ərizəsi”nin tərtib edilməsi QAYDALARI

Bu qaydalar “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 509-IVQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 802 nömrəli Fərmanının 3.1-ci bəndində verilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin 15.1.15-1-ci maddəsində nəzərdə tutulmuş ərizə formasının müəyyən edilməsi ilə bağlı tapşırığın icrasını təmin etmək məqsədilə vergilər nazirinin 02.07.2013-cü il tarixli, 1317040100691900 nömrəli əmri ilə təsdiq edilmiş “Vergi partnyorluğu sazişinin bağlanması üçün Ərizə”nin formasının doldurulması qaydalarını müəyyən edir.

Vergi partnyorluğu sazişinin bağlanması üçün ərizə forması qara və ya tünd göy rəngli qələmdən istifadə edilməklə böyük çap hərfləri ilə doldurulmalı, ərizənin doldurulma səbəbi lazımi xanada “X” işarəsi ilə göstərilməlidir.

Ərizə forması 6 bənddən ibarətdir.

1-ci bənddə ərizənin təqdim edildiyi vergi orqanı barədə məlumat nəzərdə tutulmuşdur. 1.1-ci bənddə ərizənin təqdim edildiyi vergi orqanı adı göstərilməlidir.

Misal ,

| | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1.1 | vergi orqanının adı | B | A | K | I | | V | E | R | G | İ | L | Ə | R | | D | E | P | A | R | T | A | M | E | N | T | İ | |

2-ci bənd ərizənin təyinatıdır.

2.1-ci bənddə “vergi partnyorluğu sazişinin bağlanması üçün müraciət”, 2.2-ci bənddə “vergi partnyorluğu sazişinin müddətinin uzadılması üçün müraciət”, 2.3-cü bənddə “vergi partnyorluğu sazişinə

dəyişiklik edilməsi üçün müraciət”, 2.4-cü bənddə “vergi partnyorluğu sazişinin ləğvi üçün müraciət” xanaları göstərilmişdir. Vergi ödəyicisinin müraciəti zamanı ərizənin təyinatına uyğun olaraq müvafiq xananın qarşısı “X” ilə işarələnir.

Məsələn,

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.1 | vergi partnyorluğu sazişinin bağlanması üçün müraciət | | 2.3 | vergi partnyorluğu sazişinə dəyişiklik edilməsi üçün müraciət | |
| 2.2 | vergi partnyorluğu sazişinin müddətinin uzadılması üçün müraciət | X | 2.4 | vergi partnyorluğu sazişinin ləğvi üçün müraciət | |

3-cü bənd vergi ödəyicisi haqqında məlumatlardır.

Belə ki, 3.1-ci bənddə vergi ödəyicisinin VÖEN-i, 3.2-ci bənddə vergi ödəyicisinin tam adı (fiziki şəxsin soyadı, adı və atasının adı), 3.3 və 3.4-cü bəndlərdə telefonu, 3.5-ci bənddə elektron ünvanı barədə məlumatlar qeyd edilir.

Misal,

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 3.1 vergi ödəyicisinin VÖEN-i | 1 | 5 | 0 | 1 | 2 | 1 | 1 | 3 | 2 | 1 |

| | | |
|---|---|---|
| 3.2 | vergi ödəyicisinin tam adı (fiziki şəxsin soyadı, adı və atasının adı) | K A M R A N M Ə H D U D M Ə S U L İ Y Y Ə T L İ |
| | | C Ə M İ Y Y Ə T İ |
| | | |
| 3.3 | telefon | 3.4 |
| 3.5 | elektron ünvan | |

4-cü bənddə ərizənin məzmunu göstərilməlidir.

Ərizənin məzmunu bölməsində 4.1-ci bənd Vergi partnyorluğu sazişinin bağlanmasına, 4.2-ci bənd Vergi partnyorluğu sazişinin müddətinin 1(bir) il müddətinə uzadılmasına, 4.3-cü bənd vergi orqanı ilə bağlanmış Vergi partnyorluğu sazişinə dəyişiklik edilməsinə, 4.4-cü bənd vergi orqanı ilə bağlanmış Vergi partnyorluğu sazişinin ləğv edilməsinə dair razılıq verilməsi ilə bağlıdır. Vergi ödəyicisinin müraciəti zamanı ərizənin məzmununa uyğun olaraq müvafiq xananın qarşısında ərizənin qüvvədə olma müddəti göstərilir.

Misal üçün,

| 4. ərizənin məzmunu | | | | | | |
|---|---|---|---|---|---|---|
| 4.1 | Xahiş edirəm ki, | 2 0 | - c ( _ ) il tarixdən | 2 0 | - c( _ ) il tarixədək | |
| Vergi partnyorluğu sazişinin bağlanmasına razılıq verəsiniz. | | | | | | |
| 4.2 | Xahiş edirəm ki, | 1 5 0 5 2 0 1 5 | - c ( _ ) il tarixdən | 1 6 0 5 2 0 1 5 | - c( _ ) il tarixədək | |
| Vergi partnyorluğu sazişinin müddətinin 1(bir) il müddətinə uzadılmasına razılıq verəsiniz. | | | | | | |
| 4.3 | Xahiş edirəm ki, | 2 0 | - c ( _ ) il tarixdən | 2 0 | - c( _ ) il tarixli | |
| vergi orqanı ilə bağlanmış Vergi partnyorluğu sazişinə dəyişiklik edəsiniz. | | | | | | |
| 4.4 | Xahiş edirəm ki, | 2 0 | - c ( _ ) il tarixdən | 2 0 | - c( _ ) il tarixli | |
| vergi orqanı ilə bağlanmış Vergi partnyorluğu sazişini ləğv edəsiniz. | | | | | | |

5-ci bənddə ərizəni təqdim edən vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi barədə məlumatlar doldurulur. Belə ki, 5.1-ci bənddə vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin soyadı, 5.2-ci bənddə adı, 5.3-cü bənddə atasının adı, 5.4-cü bənddə ərizənin təqdim edilmə tarixi, 5.5-ci bənddə ərizəni təqdim edənin imzası qeyd olunur. Həmçinin, ərizəyə əlavə olunan aidiyyəti sənədlər mövcud olduqda, onların sayı barədə məlumatın qeyd edilməsi üçün 5-ci bənddə müvafiq xana nəzərdə tutulmuşdur.

Misal,

| 5. ərizəni təqdim edən vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi barədə məlumat | | | | |
|---|---|---|---|---|
| 5.1 | soyadı | Z E Y A L O V | | |
| 5.2 | adı | H A M L E T | | |
| 5.3 | atasının adı | K A M R A N O Ğ L U | | |
| Ərizəyə əlavə olunan sənədlərin sayı: | | 5 | | |
| 5.4 | ərizənin təqdim edilmə tarixi | 1 1 0 5 2 0 1 5 | 5.5 ərizəni təqdim edənin imzası | ____________ |

6-cı bənd vergi orqanının qeydləridir. Burada ərizədə göstərilənlərin düzgünlüyünü yoxlayan vergi orqanının vəzifəli şəxsi barədə məlumatların qeyd edilməsi nəzərdə tutulmuşdur. Belə ki, 6.1-ci bənddə

vergi orqanının vəzifəli şəxsinin soyadı, 6.2-ci bənddə adı, 6.3-cü bənddə atasının adı, 6.4-cü bənddə imzası göstərilir.

Misal üçün,

| 6.vergi orqanının qeydləri | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | ərizədə göstərilənlərin düzgünlüyünü yoxladı (vergi orqanının vəzifəli şəxsi) | | | | | | | |
| 6.1 | soyadı | E | L | Ş | ə | N | O | V |
| 6.2 | adı | N | A | H | İ | D | | |
| 6.3 | atasının adı | V | Ü | Q | A | R | | |
| 6.4 | imzası________________________________ | | | | | | | |